AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

QƏRAR

“Azıx-Tağlar Arxeoloji Parkı” Dövlət Qoruğunun fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər və “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azıx-Tağlar Arxeoloji Parkı” Dövlət Qoruğunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 21 oktyabr tarixli 1274 nömrəli Sərəncamının 2.1.1-ci, 2.1.3-cü yarımbəndlərinin və 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azıx-Tağlar Arxeoloji Parkı” Dövlət Qoruğunun Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi üç ay müddətində:

2.1. “Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, “Azıx-Tağlar Arxeoloji Parkı” Dövlət Qoruğunun işçilərinin say həddini (ştat vahidlərini) və strukturunu Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla təsdiq etsin;

2.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 749 (Cild I); 2024, № 7, maddə 910; 2025, № 3, maddə 267, № 7, maddə 709; 2026, № 9, maddələr 957, 974, 982; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 2 oktyabr tarixli 320 nömrəli və 15 oktyabr tarixli 342 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın “I. Büdcədən maliyyələşdirilən qurumlar” bölməsinin “7. Dövlət qoruqları, muzey tipli müəssisələr” hissəsinə aşağıdakı məzmunda 7.24-cü bənd əlavə edilsin:

“7.24. “Azıx-Tağlar Arxeoloji Parkı” Dövlət Qoruğu”.

4. “Azıx mağarasının Azərbaycan SSR Elmlər Akademiyasının qoruğu elan edilməsi haqqında” Azərbaycan SSR Nazirlər Sovetinin 1969-cu il 21 aprel tarixli 158 nömrəli Qərarı ləğv edilsin.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, “ 27 ” “ noyabr ” 2026-cı il

№ 395